# İstedadlı rəssamın sənət dünyası



**Azərbaycan rəssamlıq aləmində onun ayrıca yeri var. Rəssamlıq sənətimizdə yarım əsrdən artıq uğurlu yaradıcılıq yolu keçib. Bu il 70 yaşı tamam olan istedadlı rəssam Fikrət İbrahimli Səttar Bəhlulzadə və Toğrul Nərimanbəyov kimi məşhur sənətkarlardan qaynaqlanan yaradıcılıq ruhunu əxz edib. F.İbrahimli sənətin sirlərini Neftçala şəhərində ilk müəllimi Adil Hacıyevdən mənimsəyib. Neftçala şəhərinin özünəməxsus panoramı, təbii gözəllikləri, Xəzər dənizinin füsunkar görünüşü, dalğalarının ritmik ləpələnməsindən doğan ecazkar "musiqi"si və ilahinin qüdrətindən yaranmış təbiət mənzərələri onun gələcəkdə rəssam olmasına güclü təsir göstərmişdir.**

Rəssamlıq sənətinə olan sevgi F.İbrahimlini Bakı şəhərinə gətirib çıxarır. Burada məşhur Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda peşəkar rəssamlıq təhsilinə yiyələnir, sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə qəbul olur. O, peşəkar ali rəssamlıq təhsili almaqla yanaşı, tanınmış rəssamlardan sənətin sirlərini öyrənir və məşhur rəssamlar Səttar Bəhlulzadə və Toğrul Nərimanbəyovla şəxsi dostluq və yaradıcılıq əlaqələri yaratmağa başlayır.



F.İbrahimli üçün təhsil illərində əxz etdiyi sənət vərdişləri nə qədər əhəmiyyətli olmuşsa, rəssamın sənət dostları ilə yaxın münasibətləri və onlarla birgə etüdə getdikləri günlər də bir o qədər yaddaqalan və önəmli olub. Xalq rəssamı Toğrul Nərimanbəyov "Ulduz" jurnalının 1980-ci ilin 10-cu nömrəsində xeyir-dua mahiyyətli yazısında istedadlı tələbəsi Fikrət İbrahimliyə uğurlu yol arzulayıb.

Azərbaycan Rəssamlar İttifaqının üzvü F.İbrahimlinin əsərləri dəfələrlə ölkəmizdə və xaricdə təşkil olunan sərgilərdə nümayiş olunub, diplom və mükafatlara layiq görülüb. Eyni zamanda əsərləri ölkəmizdə və xaricdə muzey, qalereya və şəxsi kolleksiyalarda saxlanılır.

F.İbrahimli 70 illik həyatının yarım əsrini bədii yaradıcılıqla məşğul olub. Rəssamlığı həyatının ayrılmaz bir hissəsi hesab edən sənətkar üçün dünyaya açılan pəncərə onun emalatxanasından başlayır. O, indiyədək dəzgah rəngkarlığı sahəsində süjetli tablo, portret, mənzərə və natürmort janrlarında bir-birindən maraqlı yüzlərlə sənət əsərləri yaradıb. İstedadlı rəssam həm  də dəzgah və kitab qrafikası, keramika sahələrində də maraqlı sənət nümunələri ərsəyə gətirib. Rəssam uğurlu bədii yaradıcılıq fəaliyyəti sayəsində yaddaqalan, bədii estetik zövq mənbəyi hesab olunan çoxsaylı lirik əsərlər müəllifi kimi tanınır.

Onun rəngkarlıq sahəsində yaratdığı əsərlərin əsas mövzu dairəsi və qayəsi Azərbaycan mədəniyyətinin və təbiətinin gözəlliklərini həssas rəssam duyumu və sənətin güclü bədii ifadə vasitələri ilə kətanda əks etdirməkdir. Sənətkarın yaradıcılığında Bakı, İçərişəhər, Şuşa, Neftçala mövzusu qırmızı xətt kimi keçir. Deyir ki, onun qədim mədəniyyətimizə bağlılığı və vurğunluğu İçərişəhərlə tanışlıqdan başlayır: "Tələbəlik illərində və sonrakı bir neçə ildə mən İçərişəhərdə yaşamışam. Oradakı memarlıq abidələri, yollar, qala divarları gözlərimdə canlanan bir nağıldır". Hər bir yaradıcı sənətkar öz xalqının və mədəniyyətinin ifadəçisidir fikri ilə yanaşmış olsaq, əminliklə deyə bilərik ki, rəssam F.İbrahimli yaratmış olduğu bədii əsərləri ilə öz ölkəsinin zəngin mədəniyyətini və təbiətini incə bədii zövqlə, məxsusi rəssam təxəyyülü və inandırıcı rəng boyaları ilə kətanda əks etdirə bilmişdir.

Rəssamın süjetli tablo və mənzərə əsərlərinə nümunə olaraq "Həyat naminə", "Muğam", "İçərişəhər", "Neftçala. Limanda", "Neftçala. Balıq kombinatı", "Nişan. Rəfiqələr", "Kəndimizin qızları", "Xonça aparırlar", "Gəlin gətirməyə", "Toy", "Kür qırağında", "Kür çayı", "Fatmayı", "Bağ evi. Novxanı", "Abşeron motivi", "Abşeron günəbaxanları" və başqalarını qeyd etmək olar. Adlarından da hiss olunduğu kimi, Fikrət İbrahimlinin ilham qaynağının məhsulu olan lövhələr heç də asanlıqla kətanda öz əksini tapmamışdır. Təbii ki, bu cür sənət nümunələrinin yaradılmasının arxasında onun inamlı yaradıcılıq axtarışları, həssas müşahidələri və peşəkar sənət ustalığı dayanır.

Rəssam bir sıra portret və natürmort əsərlərinin müəllifi kimi də özünü təsdiq edən sənətkarlarımızdandır. Məlumdur ki, portret əsərində rəssamdan surətini yaradacağı şəxsin anatomik bənzəyişini əks etdirməklə yanaşı, qəhrəmanının fərdi xarakterik xüsusiyyətlərini təsvir etmək də tələb olunur. F.İbrahimlinin yaratdığı portret əsərlərində bu əsas iki istiqamətin paralel aparıldığı müşahidə edilir.



2022-ci ildə Muzey Mərkəzində F.İbrahimlinin "Ruhumun təqdimatı" adlı fərdi sərgisi təşkil olunmuşdu. Sərgidə onun 60-a yaxın əsəri nümayiş edilirdi.  Sərgidən sonra rəssamın yaradıcılığına, onun əsərlərinə maraq daha da artdı. O, Orta Asiyada - Özbəkistanda TÜRKSOY-un təşkilatçılığı ilə keçirilən festivala dəvət aldı, ölkəmizi xalq rəssamları Sakit Məmmədov, Arif Əzizlə birlikdə təmsil etdi, mükafatlarla geri döndü.

2023-cü ildə F.İbrahimlinin həyat və yaradıcılığı haqqında "Ömür səhifələrim" adlı sanballı kitabın sevincini bölüşmək və bu nəşri sənətsevərlərə təqdim etmək xoşbəxtliyi nəsib oldu. Fikrimcə, kitabın nəfis şəkildə çapı rəssama ən böyük hədiyyədir. Üç dildə nəşr edilən kitab nəsillər və əsrlərarası körpüdür.

*Əsəd QULİYEV,*
*Rəssamlar İttifaqının üzvü,*
*sənətşünas*